Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

İlyas Tapdıq



# BİR EVİM VAR



# Yazıq arı

Gül üstünə
Arı düşüb –
Külək vurub
Gözlərinə
darı düşüb!
Necə görür
yazıq arı,
İncitmirmi ,
onu darı!?

# Qarr! Qarr!

Qarğa,a qarğa,
Uçurdun bağa,
Yola qonurdun,
Kola qonurdun.
„Qar-qar!“ deyirdin,
„Qar“ istəyirdin.
Dağa bax, dağa,
Bürünüb ağa.
Yollar da ağdır,
Kollar da ağdır
„Qar“ istəyirdin,
Deyirdin:
“Qarr! Qarr!”
Bu da sənə qar!
Elə yenə də
“Qar-qar” deyirsən,
İndi de görək
Nə istəyirsən?!



# Qorxaq qurbağalar





Qaçıb girir bulağa
Sudan çıxmır qırağa,
Bu qorxaq qurbağalar
İndi suda boğular!





# Ayı kim sındırıb

Aya baxın!
Ay! Ay! Ay!
Dəyirmiydi
Ay, ay, ay!
Bir böyrünü
Kim qırıb?
Vay! Ayı kim
Sındırıb?!



# Armud

Dağın yamacı...
Yamacda bitib
Armud ağacı.
Bıtraq kimidir
Ağacda armud,
Düşsə gillənər
Yamacda armud.
Ayı armudu
Görüb sevindi,
Mayallaq vurdu:
– Armud mənimdi!
Armud mənimdi!!

Budaqlarını
Çəkib əyərəm,
Çıxıb başına
Bir-bir yeyərəm.
Qarğa armudu
Görüb sevindi:
– Qar-r-alıb budur,
Armud mənimdi!
Q-armud
mənimdi!!
Xətrim istəsə
Dimdikləyərəm,
Qonub budağa
Bir-bir yeyərəm.
Kirpi armudu
Görüb sevindi:
– Bildirçin budu

Armud mənimdi!
Armud mənimdi!!
Düşər yanıma,
“Sağ ol!” deyərəm,
Pəncələrimlə
Tutub yeyərəm.
Siçan armudu
Görüb sevindi.
Quyruğu üstdə
Qalxıb oturdu.
–Armud mənimdi!
Armud mənimdi!!
Saplağınıca
Öz quyruğuma
Tutub düyərəm,
Salıb yuvama
Bir-bir yeyərəm.
Külək eşidib
Onlara güldü;
Çırpdı ağacı,
Armud töküldü.
Qarğa özünü
Atdı qırağa, –
„Ay qoydu ayı
Məni yamacda
Armud yığmağa?!”
Siçan çağırdı
Qonşu siçanı,
Armuda batdı
Kirpi tıkanı,
Hərə bir qədər
Yığıb apardı,





Ayının ancaq
Oyunu vardı:
Onun armuda
Acığı tutdu:
Dedi: Bu armud
Qurtdu armutdu!
Küsdü yamacdan,
Küsdü ağacdan,
Amma ağacın
Günahı nəydi?
Armudu yerə
Tökən küləkdi.



# Qonaq cüyür

Şüvəlan
bağların
məkanı,
Qum üstdə
iz salıb
ağ şanı.
Aybəniz
cüyürlə
oynayır,
Cüyür də
oynayır,
doymayır;
Buynuzu
təzəcə
dənzərir.



Əncirin
pöhrəsi
bənzəri...
Başını
divara
sürtür o,
Dalğanın
səsindən
ürkür o.
Gah yatır,
dolanır
gah bağı,
Qum üstdə
iz salır
dırnağı.

# Bir evim var

Gülə-gülə
Gülnara
Belə dedi
İlqara:
– Budaqda bir evim var,
Tap görüm, orda кim var?
Divarı taxça-taxça,
Taxçası boxça-boxça,
Taxçaları tağlıdır,
Boxçaları bağlıdır.
Bir çinidir axçası,
Yox qapısı, bacası.
Açarla açmaq olmaz
Açılsa qaçmaq olmaz.
Bir qədər fiкirləşdi,
Tapmaq üçün əlləşdi,
İlqar dedi:
– Gülnara,
Bu ev oxşayır nara!
Taxçası boxçalıdır,
Boxçası axçalıdır.
Taxçasını açmışam,
Boxçasını açmışam.
Baxmışam bacasından,
Yemişəm axçasından.
Şirini var, turşu var,
Belə deyib atalar:
Ətindən кabab olmaz,
Qanından кasa dolmaz.



Bərpanəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 2 ç.v.
Sifariş 18
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin
kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS – A"